Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

EU4Environment
Green Economy in Eastern Partner Countries

# Dayanıqlı Dövlət Satınalmalarının (DDS) **ekoloji, sosial və iqtisadi faydaları**

## Satın alanlar üçün Məlumat

## DDS nədir?

**Dayanıqlı dövlət satınalmaları (DDS) dövlət qurumlarının pul müqabilində dəyərə nail olan və cəmiyyət, iqtisadiyyat və ətraf mühit üçün faydalar yaradan mal və xidmətlər satın almasıdır.**[1]



## Nə üçün ekoloji və sosial meyarları dövlət satınalmalarına daxil etməli?

Dövlət vəsaitlərinin sərf olunması **dayanıqlılıq və innovasiyalar istiqamətində bazarları effektiv** hərəkətə gətirə bilər.



DDS təchizat zənciri boyunca ekoloji və sosial təsirləri azaltmaqla və daha yaşıl və ədalətli məhsullara tələb yaratmaqla, **istehlak və istehsal vərdişlərini dəyişə bilər**.



DDS satınalan təşkilatların **ətraf mühitə göstərdiyi təsiri azalda** bilər.




## DDS-nın satın alanlar üçün səmərələri nələrdir?

1. Enerji və material sərfiyyatını azaltmaqla **uzunmüddətli maliyyə faydaları**; azaldılmış təmir/saxlanma xərcləri; daha uzun müddətli məhsul tsikli və azaldılan zərərsizləşdirmə xərcləri.
2. Lider kimi davranış nümunəsi sərgiləyərək və riskləri azaldaraq, **siyasi faydalar**.
3. Ətraf mühitə zərərləri minimuma endirən mal və xidmətlərin strateji satın alınması vasitəsilə **təbii ehtiyatların və biomüxtəlifliyin qorunub saxlanması**.
4. Ətraf mühit və sosial sahə üzrə qanunvericiliyə riayət olunmasını genişləndirən təkmilləşdirilmiş **ekoloji, sosial və gender tarazlığını özündə ehtiva edən fəaliyyət**.
5. İqtisadi fəaliyyətin məhdud resursların istehlakından tədricən ayrılması və tullantıların sistemdən çıxarılması yolu ilə **iqlim dəyişikliyinə qarşı mübarizə tədbirlərinin və sirkulyar (dövri) iqtisadiyyata keçidin təşviqi**.
6. Eko-sənayelərin, innovasiyaların və iş yerlərinin **yaradılmasının stimullaşdırılması**.

**Daha ətraflı məlumat üçün:**
www.unep.org/explore-topics/resource-efficiency/what-we-do/sustainable-public-procurement

Design: Zoï Environment Network

[1] **Sustainable Public Procurement: How to Wake the Sleeping Giant!** UNEP, 2021.

www.eu4environment.org

**© 2023 UNEP.** Bütün hüquqlar qorunur. Şərtlərə əsasən Avropa İttifaqına lisenziyalaşdırılmışdır.

Action implemented by:
OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP